UOT 78
https://doi.org/10.59849/2311-8482.2024.1.207

ELVİRA RZAYEVA*

# SƏNƏTDƏ PARLAQ İMZA SAHİBLƏRİ

*Təqdim olunan məqalənin yazılmasında başlıca məqsəd Naxçıvanda doğulub boya-başa çatmış və Naxçıvan musiqi mədəniyyətinin inkişafında layiqli xidmətləri olmuş musiqiçiləri Naxçıvan musiqi ictimaiyyətilə yaxından tanış etmək və onlara bu sənət adamları haqqında əldə olan məlumatları çatdırmaqdır. Mədəniyyətimiz, musiqimiz bizim ən önəmli silahımızdır. Bu səbəbdən də bizim məqsədimiz Naxçıvanı, onun musiqi mədəniyyətini ən yüksək səviyyədə təqdim etmək üçün sənətindən silah kimi istifadə edən və bu işdə hədəfi dəqiq nişan almağı bacaran musiqiçiləri bütün dünyaya tanıtmaqdır. Naxçıvan musiqi sənəti bu günə qədər böyük yol keçmiş, inkişaf etmiş və neçə-neçə görkəmli musiqiçilər yetişdirmişdir. Bu musiqiçilər sırasında Yusif Əsgərovun imzası xüsusi ilə seçilir. Onu da qeyd etmək lazımdır ki, Naxçıvanda nəfəs alətlərinin inkişaf etdirilməsində və təbliğ olunmasında Yusif Əsgərovun rolu həqiqətən danılmazdır. Məhz bu səbəbdən də məqalədə Yusif Əsgərovun Naxçıvanın musiqi mədəniyyətinin inkişafı üçün atdığı misilsiz addımlardan bəhs olunur.*

***Açar sözlər:*** *Naxçıvan, Yusif Əsgərov, nəfəs alətləri, musiqi, orkestr*

## Giriş

**Yusif Səməd oğlu Əsgərov** - 11 avqust 1953-cü ildə Naxçıvan şəhərində anadan olub. Yusif Əsgərov 1960-1970-ci illərdə Naxçıvan şəhər Əkbər Ağayev adına İnternat məktəbində orta təhsil alıb. Hələ uşaqlıq illərindən onun incəsənətə meyli yaşıdları, oxuduğu məktəbin müəllim və şagirdlərinin nəzərindən yayınmamışdır. Məktəbdə və ondan kənarda keçirilən tədbirlərdə iştirak edən gənc Yusif gələcəkdə hər bir şəxsdə musiqiçi olacağına dair inamı artırırdı. Məhz onların və valideynlərinin məsləhəti ilə Yusif sənədlərini 1965-ci ildə Naxçıvan şəhər 1 saylı uşaq musiqi məktəbinə verir və orada bəstəkar, dirijor Məmməd Məmmədovun sinfində akkordeon və truba iki ixtisas üzrə ilk musiqi təhsilini alır.

## Əsas təhlil

1970-ci ldə musiqi məktəbini müvəffəqiyyətlə bitirən Yusifin qabiliyyət və bacarığı, musiqiyə olan həvəsi bəstəkar Məmməd Məmmədovun diqqətini cəlb edir. Onu 16 yaşında Naxçıvan teatrının musiqi hissəsinə akkordeon və truba ifaçısı kimi dəvət edir. Elə o vaxtdan da Yusif müəllim həyatını Naxçıvan teatrına bağlayır. Teatrda çalışdığı ilk gündən gənc Yusif bəstəkar M.Məmmədovun etimadını doğruldur. Yusif Əsgərov teatrda işləyə-işləyə 1975-1976-cı illərdə Moskvada İncəsənət Universitetinin başlanğıc nəzəriyyə kursunu bitirir. Qabiliyyət və işə münasibətini nəzərə alan teatr rəhbərliyi Azərbaycan Respublikasının əməkdar artisti, teatrın baş rejissoru Vəli Babayevin təqdimatı



ilə 1977-ci ildə onu musiqi hissə müdiri və dirijor vəzifəsinə təyin edirlər.

Elə o vaxtdan da onun dirijorluq fəaliyyəti başlayır. Tanınmış musiqiçi Yusif Əsgərov 1978-1979-cu illərdə Moskva Ümumittifaq Mədəniyyət İşçiləri İxtisasartırma İnstitunda simfonik orkestrin dirijorluq kursunu keçir. Burada o, görkəmli mütəxəssislərin – Böyük teatrın bədii rəhbəri və baş dirijoru RSFSR-n əməkdar artisti Yuri Simonov, Böyük teatrın dirijoru Fuad Mansurov və SSRİ-nin Akademik Simfonik orkestrinin bədii rəhbəri və baş dirijoru SSRİ-i xalq artisti Yevqeni Svetlanovun yanında təcrübə keçir. İstər təhsil aldığı illərdə, istərsə də ixtisasartırma kursunda aldığı bilik və təcrübə işi Naxçıvan teatrının orkestrinin inkişafında mühüm rol oynayır. Yusif Əsgərov Naxçıvan teatrında bir çox musiqili komediya və operettalarda orkestrin dirijoru kimi çıxış etmişdir. Yusif Əsgərov teatrda işlədiyi müddətdə daim oz üzərində işləyir, musiqi təhsilini artırmaq üçün yollar axtarırdı. Məhz bu səbəbdən də 1981-1986-cı illərdə Soltan Hacıbəyov adına Sumqayıt Orta İxtisas Musiqi məktəbinin "Nəfəs alətləri" şöbəsində qiyabi olaraq təhsil alır. Burada o, Azərbaycan Dövlət Sirkinin bədii rəhbəri və baş dirijoru Həsən Abdullayevdən orkestr və dirijorluq sənətinin sirlərini öyrənir. 1986-1990-cı illərdə isə Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasının "Orkestr alətləri" şöbəsində təhsilini davam etdirir. O, görkəmli müəllimlərdən – Azərbaycan Dövlət "Nəfəs alətləri orkestri"nin bədii rəhbəri və baş dirijoru, dosent Vaqif Süleymanov, Azərbaycan Dövlət "Simfonik Orkestri"nin solisti, dosent Elxan Rüstəmov və bəstəkar – dirijor Həsən Rzayevdən dərs alır.

Yusif Əsgərovun fəaliyyəti təkcə teatrla məhdudlaşmır. Vaxtilə Naxçıvan şəhər İnternat, 30 saylı Dəmiryol orta məktəbində və Culfa şəhər musiqi məktəbində "Nəfəs alətləri orkestri" yaradaraq həmin orkestrin bədii rəhbəri və dirijoru olmuşdur. Yusif müəllim Muxtar Respublikanın müxtəlif musiqi məktəblərində pedoqoji fəaliyyətlə də məşğul olub. O, 1985-ci ildə yenidən Naxçıvan şəhərində Məmməd Məmmədov adına 1 saylı uşaq musiqi məktəbində "Nəfəs alətləri" şöbəsini açır və uzun illər burada truba, trambon, qaboy, fleyta ixtisası üzrə çoxlu sayda musiqiçilər yetişdirir. Naxçıvanda musiqi məktəbində "Nəfəs alətləri" şöbəsinin açılması o dövrün ən vacib, ürəkaçan hadisələrindən biri olmaqla yanaşı, Naxçıvan musiqi mədəniyyətinin inkişafı tarixində çox mühüm əhəmiyyət kəsb etmişdir. 1 saylı uşaq musiqi məktəbində mis nəfəs alətlərinin təbliğ olunmasında və ifaçıların hazırlanmasında Yusif Əsəgrovun böyük rolu olmuşdur.



***Naxçıvan şəhər 1 saylı Uşaq musiqi məktəbinin nəfəs alətləri sinfi***

Onun yetirmələrindən bir çoxu musiqi məktəblərində, eləcə də Naxçıvan Dövlət Universitetində Yusif müəllimlə çiyin-çiyinə fəaliyyət göstərirlər. Həmin mis nəfəs alətləri ixtisası üzrə dərs almış ifaçılar hal-hazırda Naxçıvan Dövlət Universitetinin "Nəfəs alətləri" orkestrində, Naxçıvan Dövlət Filarmoniyasının "Estrada orkestri"ndə, hərbi orkestrlərdə və musiqi məktəblərində çalışırlar. O bir müəllim kimi öz təcrübəsini şagirdlərindən əsirgəməyib. Onun musiqi mədəniyyətimizin inkişafındakı xidmətləri böyükdür. Həmin illərdən indiyə kimi o musiqimizin keşiyində duran, onu xidmətləri ilə daha da rövnəqləndirən əsl vətənpərvər və bacarıqlı bir sənətkar kimi özünü sübut edib. Xüsusilə qeyd etmək lazımdır ki, 2007-ci ildə Yusif Əsgərovun şagirdlərindən Həmid Əsgərov, Fərman İbrahimov Azərbaycan Respublikası üzrə Bakı şəhərində keçirilən müsabiqədə iştirak ediblər və Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin diplomlarına və mükafatlarına layiq görülüblər. Bacarığı, işgüzarlığı və gözəl bir musiqiçi kimi Yusif Əsgərov bu gün də öz doğma peşəsinin öhdəsindən şərəf və ləyaqətlə gəlir. Hal-hazırda Yusif Əsgərov Naxçıvan Dövlət Universitetinin "Orkestr alətləri və dirijorluq" kafedrasının "Nəfəs alətləri" orkestrinin dirijorudur və Musiqi Kollecində müəllim kimi fəaliyyət göstərir.



Yusif Əsgərov məşq zamanı\ Naxçıvan Musiqi \Kolleci

Yusif müəllim ixtiyar yaşında gənclik həvəsi ilə gənc nəslə öz zəngin həyat və sənət təcrübəsini öyrətməkdədir. Demək olar ki, bu sənətdə Yusif müəllim 54 il populyarlığını saxlamış və bu gün də musiqiçilər arasında seçilən Yusif Əsgərov olaraq qalır. Tanınmış musiqiçi, gözəl pedaqoq və ziyalı insan olan Yusif Əsgərovun yorulmaz yaradıcılıq fəaliyyəti haqqındakı söhbətimizə yekun vuraraq, Yusif müəllimə möhkəm can sağlığı, , uzun ömür, nəfəs alətləri üzrə yüksək ixtisaslı ifaçı kadrların hazırlanması işində yaradıcılıq uğurları və xalqımızın qələbə ruhunu qoruyan möhtəşəm "Nəfəs alətləri" orkestrimizin daim önündə dayanmasını arzulayırıq. Onu da qeyd etmək lazımdır ki, Yusif Əsgərov öz peşəsini oğlu Pərvinə də sevdirə bilib. Hər bir valideyin üçün onun övladının öz işinin davamçısı olması sevindirici bir haldır. Naxçıvan musiqi mədəniyyətinə böyük töhfələr vermiş Əsgərovlar ailəsinin istedadlı nümayəndəsi Pərvin Əsgərov 30 noyabr 1989-cu ildə Naxçıvan şəhərində musiqiçi ailəsində dünyaya göz açıb. 1996-2005-ci illərdə Naxçıvan şəhər Eynəli Sultanov adına 7 saylı tam orta məktəbdə təhsil alıb. Uşaqlıqdan musiqiyə həvəs göstərən Pərvin 2000-2005-ci illərdə Naxçıvan şəhər Məmməd Məmmədov adına 1 saylı musiqi məktəbində truba ixtisası üzrə təhsil alıb.



**İncəsənət fakültəsinin "Orkestr alətləri və dirijorluq" kafedrasının "Nəfəs alətləri" orkestri**

2004-cü ildə Naxçıvan Muxtar Respublikasının yaranmasının 80 illik yubileyi münasibəti ilə Naxçıvan şəhər uşaq musiqi, bədii sənətkarlıq və incəsənət məktəbi şagirdlərinin baxış müsabiqəsində truba ixtisası üzrə II yerin, 12 may 2005-ci ildə isə Ümummilli lider Heydər Əliyevin anadan olmasının 82-ci ildönümünə həsr olunmuş Muxtar Respublika uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəbləri şagirdlərinin baxış müsabiqəsində isə I yerin qalibi olmuşdur.

Musiqi məktəbini bitirdikdən sonra 2005-2009-cu illərdə Naxçıvan şəhər Musiqi texnikomunun "Nəfəs alətləri" şöbəsində truba ixtisası üzrə təhsil almışdır. Hələ Musiqi texnikomunda təhsil almaqla yanaşı Məmməd Məmmədov adına 1 saylı uşaq musiqi məktəbində truba ixtisası üzrə müəllim, eyni zamanda Naxçıvan Dövlət Musiqili Dram Teatrında truba ixtisası üzrə orkestr ifaçısı kimi əmək fəaliyyətinə başlayır. Pərvin Əsgərov 2009-2010-cu illərdə Kəngərli rayon Qıvraq qəsəbəsində 217 saylı hərbi hissədə xidmət edib, hərbi xidməti başa vurduqdan sonra 2011-ci ildən Naxçıvan Dövlət Filarmoniyasının "Estrada orkestri"nə dəvət alaraq orada truba ifaçısı kimi çalışmağa başlamışdır.



2012-2023-cü illərdə Naxçıvan şəhər Əlahiddə Sərhəd diviziyasında, daha sonra isə Daxili Qoşunların hərbi orkestrində orkestrant musiqiçi kimi çalışıb. Bununla yanaşı təhsilini daha da mükəmməlləşdirmək üçün 2016-2020-ci illərdə Bakı Musiqi Akademiyasının "Nəfəs alətləri" şöbəsində Azərbaycan Respublikasının əməkdar artisti Vladislav Kuznetsovun sinfində truba ixtisası üzrə qiyabi təhsil alır.

2020-ci ildən isə Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsinin "Orkestr alətləri və dirijorluq" kafedrasında yaradılmış kamera, estrada, simfonik və nəfəs alətləri orkestrlərinə dəvət olunaraq valtorna və truba ifaçısı kimi fəaliyyət göstərir.

Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsinin "Orkestr alətləri və dirijorluq" kafedrasında yaranan simfonik və nəfəs alətləri orkestrlərinin tez-tez konsert proqramları olur və Pərvin Əsgərov orkestrin tərkibində valtorna və truba ifaçısı kimi iştirak edir. O, 18 Sentyabr 2021-ci ildə Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsinin və Musiqi Kollecinin ilk dəfə birgə hazırladığı "Milli Musiqi günü"nə həsr olunmuş "Simfonik orkestr"in konsertində, 8 noyabr 1921-ci ildə isə Naxçıvan şəhər Heydər Əliyev adına sarayda həmin orkestrin "Zəfər günü"nə həsr olunmuş konsert proqramında, 27 May 2022-ci ildə Heydər Əliyev adına sarayda 28 May Müstəqillik gününə həsr olunmuş "Simfonik orkestr"in konsertində, 10 may 2023-cü ildə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi münasibətilə doğma yurdunda Naxçıvan Dövlət Universitetinin təşkilatçılığı ilə keçirilən geniş konsert proqramlarında Pərvin Əsgərov ifaçı kimi orkestrin tərkibində yüksək peşəkarlıqla çıxış edib.



25 sentyabr 2023-cü ildə Naxçıvan Dövlət Filarmoniyası Simfonik orkestrinin "Üzeyir Hacıbəyli – XV Beynəlxalq Musiqi Festivalı" çərçivəsində keçirilən konsertdə Pərvin Əsgərov orkestrdə valtorna ifaçısı kimi çıxış edib.

29 dekabr 2023-cü ildə Naxçıvan Dövlət Universitetinin "Simfonik orkestri" ilk dəfə Bakı şəhəri M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr olunmuş konsert proqramı ilə çıxış edib. Həmin konsert proqramında Pərvin Əsgərov orkestr ifaçısı kimi iştirak edib.

Çəkdiyi zəhmətin, göstərdiyi səylərin, çalışqanlığının sayəsində Pərvin Əsgərov bu gün artıq tanınmış, istedadlı valtorna və truba ifaçılarımızdandır. Qururla qeyd etmək lazımdır ki, Pərvin Əsgərov Naxçıvan musiqi tarixinə ilk Naxçıvanlı valtorna ifaçısı kimi adını əbədi olaraq həkk etdirib. Onun həyat fəlsəfəsi bu sənəti ən yüksək pillədə qoruyub saxlamaq və bu ailənin yolunu layiqincə davam etdirməkdir.



***İlk Naxçıvanlı valtorna ifaçısı Pərvin Əsgərov***

**Nəticə**

Beləliklə, bizdə Pərvin Əsgərova mədəniyyət və incəsənətimizi daha gözəl ifalarıyla təmsil edərək, bu yolda hər zaman sənətinin zirvəsində olmağı və misilsiz sənət uğurları qazanmasını arzulayırıq.

**ƏDƏBİYYAT**
1.Ə.Qəhrəmanov. Bu yol nəğmə yoludur. Mədəni maarif - 2005
2.E.Rzayeva. Naxçıvan musiqi sənətinin sevilən siması. "Şərq qapısı" qəzeti – 12.08.2023
3.R.Kərimov. Naxçıvan musiqi mədəniyyəti tarixindən. Bakı; Azərnəşr - 2012

***Naxçıvan Dövlət Universiteti**
***e-mail:elviraliyeva71@gmail.com***

**Elvira Rzayeva**

**BRIGHT SIGNATURES IN ART**

The main purpose of writing the presented article is to introduce the musicians who were born and raised in Nakhchivan and who have contributed to the development of Nakhchivan musical culture to the musical community of Nakhchivan and to convey to them the available information about these artists. The art of Nakhchivan music has played an exceptional role in its development until today and has produced several outstanding musicians. Yusif Askerov's signature stands out among these musicians. It should also be noted that the role of Yusif Askerov in the development and promotion of wind instruments in Nakhchivan is truly undeniable. It is for this reason that the article talks about Yusif Askerov's unparalleled steps for the development of the musical culture of Nakhchivan.
**Keywords:** *Nakhchivan, Yusif Askerov, wind instruments, music, orchestra*

**Эльвира Рзаева**

**ЯРКИЕ ПОДПИСИ В ИСКУССТВЕ**

Основная цель написания представленной статьи – познакомить музыкальную общественность Нахчывана с музыкантами, родившимися и выросшими в Нахчыване и внесшими вклад в развитие музыкальной культуры Нахчывана, и донести до них имеющуюся информацию об этих исполнителях. Музыкальное искусство Нахчывана до сегодняшнего дня играло исключительную роль в его развитии и дало миру несколько выдающихся музыкантов. Среди этих музыкантов выделяется подпись Юсифа Аскерова. Следует также отметить, что роль Юсифа Аскерова в развитии и популяризации духовых инструментов в Нахчыване поистине неоспорима. Именно по этой причине в статье говорится о беспримерных шагах Юсифа Аскерова по развитию музыкальной культуры Нахчывана.
**Ключевые слова:** *Нахчыван, Юсиф Аскеров, духовые инструменты, музыка, оркестр*

*Sənətşünaslıq elmləri doktoru İnara Məhərrəmovas tərəfindən təqdim edilmişdir.*

**İlk daxilolma tarixi: 19.01.2024**
**Son daxilolma tarixi:11.03.2024**